ELVİN İNTİQAMOĞLU



## BOŞ DÜNYA

Təsəvvür et:
Yer qatı var, göy qatı var,
İnsan adlı canlı yoxdu...
Təsəvvür et:
Dünyanı yoxdan yaradan Tanrı var,
Palçıqdan insan fiqurun
düzəldəcək Tanrı yoxdu!

Təsəvvür et:
Nə Həvva var, nə də Adəm,
Nə də onlardan törəyən davamçılar...
Nə savab var, nə günah var,
Nə cənnət var, nə cəhənnəm!

Təsəvvür et:
İnsan əliylə qurulan bina yoxdu,
İnsan əliylə salınan meşə yoxdu...
Sənət yoxdu, peşə yoxdu:
Dünya çılpaqdı, lümlütdü,
Ona paltar tikən yoxdu...
Boş dünyanın boşluqların
Karandaşla çəkən yoxdu!

Təsəvvür et:
Bir-birini sevən yoxdu,
Xəyanət eyləyən yoxdu...
Tanrı boş-bekar dayanıb göy üzündə
Şikayət eyləyən yoxdu!

Təsəvvür et:
Ölkə yoxdu, şəhər yoxdu...
Ərazilər ümumidir,
Müharibə edən yoxdu, pozan yoxdu atəşkəsi...
Yoxdu şəhid qarşılayan ananın qışqırıq səsi!

Təsəvvür et:
Şeytan vaxt öldürə bilmir,
Kimsə yoxdu hiyləsinə aldanacaq, kimsə yoxdu səhv edəcək...
Vəzifədən çıxardacaq,
Tanrı onu məhv edəcək!

Gör necə sakitçilikdi,
İnsanların olmamağı dünya üçün bol sevincdi...
Sən Allah, təsadüfə bax:
Dünya boşdu, insan dincdi,
İnsan yoxdu, dünya dincdi!

## BAYRAQ

Parçadan bayraq tikənlər,
Gələn səfər qırmızısın çox edin...
Qırmızı rəng bəs etməsə,
İynəni torpağa sürtün -
Qanı yerdə qalmasın heç bir şəhidin!
Şəhidim, bağışla bizi,
Biz sizinlə əlbir olub döyüşlərə girmədik...
Neçə-neçə ay-ulduzlu paqonlu mərd itirdik -
Təki Vətən sağ olsun,
Şükürlər olsun üçrəngli ay-ulduzu itirmədik!
Əsir sərt şimal küləyi...
Dənizdən bir gəmi keçir,
Dəniz ona arxalanır -
Gəminin alt hissəsində şıltaq dəniz ləpələnir,
Gəminin üst hissəsində bayrağımız dalğalanır!

ədalt.- 2020.- 3 sentyabr.- S.6.